# Böyük qələbənin bir addımlığında



## Füzuli və Cəbrayıl sakinləri də həmin günü həsrətlə gözləyirlər

***Mənə elə gəlir ki, mətbuatımızın və sosial şəbəkənin dilində əzbərə çevrilmiş "Kəlbəcərin düşmən əlinə keçməsini yenə də Kəlbəcərsiz yada salırıq", "Şuşanın işğalının ildönümünü Şuşasız anırıq" kimi ifadələri Füzuli və Cəbrayıl rayonları haqqında deməməliyik. Çünki Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Füzuli rayonunun böyük bir ərazisini – xeyli kəndlə birlikdə Horadiz qəsəbəsini məhz qanlı döyüşlər nəticəsində işğaldan azad etmiş və həmin qəsəbə şəhər şəklində yenidən qurulmuş, abadlaşdırılmışdır. Aradan xeyli keçəndən sonra isə Silahlı Qüvvələrimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Lələtəpəyə bayraq sancmaqla, Cəbrayıl rayonunun da ərazisinin bir hissəsinin qayıdışını təmin etmişdir.***

Ancaq Prezident İlham Əliyev Azərbaycan əsgərinin daha böyük uğurlarının hələ qarşıda olduğunu bəyan edir: "Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

İş elə gətirib ki, ilin müxtəlif aylarında biz hansısa rayonumuzun işğal edilməsinin ildönümünü yada salmalı oluruq. 2017-ci il iyunun 14-dən sonra həmin ildönümlərinin hamısında mənim gözümün önündə Prezident İlham Əliyevin Cocuq Mərcanlıya səfəri çərçivəsində yeni inşa olunmuş 96 şagird yerlik məktəblə tanış olarkən etdiyi çıxışı canlanır: "Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, başqa yerdə doğulmusan, sən də Cocuq Mərcanlı kəndinin sakinisən. Amma əminəm, sənin kimi yüzlərlə gənc var ki, Cocuq Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bax, bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün, eyni zamanda, onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər var. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, ordusunun gücünü, cəsarətini göstərdi".

Bəli, bu gün Azərbaycanın güclü iqtisadiyyatı da var, qüdrətli ordusu da, qətiyyətli lideri də. Amma torpaqlarımızı işğal etmiş qaniçən düşmənlərimizin himayədarları da güclüdür və beynəlxalq təşkilatların fəaliyyətindəki ikili standartlar da hələ "qüvvədən düşməyib". Ona görə də artıq 27 ildir ki, işğaldakı digər rayonlarımız kimi, Füzuli və Cəbrayıl da düşmən tapdağındadır.

Rəsmi məlumatlarda qeyd edilir ki, ərazisi 1050 kvadratkilometr, əhalisi isə 60 minə yaxın olan Cəbrayılın işğalı nəticəsində rayona külli miqdarda ziyan dəyib. Rayonda 90 kənd var və hazırda yalnız bir kənd – Cocuq Mərcanlı erməni işğalından azad olunub. İşğaldan öncə rayonda 35 uşaq bağçası, 65 orta məktəb, 1 texniki peşə məktəbi, 73 xəstəxana və digər tibb müəssisəsi, 63 mədəniyyət obyekti fəaliyyət göstərib.

Bildirilir ki, Cəbrayıldan olan məcburi köçkünlər hazırda ölkənin 58 rayonunda 2000-ə yaxın yaşayış məntəqəsində məskunlaşıb. Erməni silahlı birləşmələri tərəfindən işğal olunmazdan əvvəl rayonun kənd təsərrüfatı, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, baramaçılıq sahələrindən ibarət olub. Cəbrayıl ərazisindən Bakı–Naxçıvan dəmir yolu (52 kilometr), Şirvan–Zəngilan avtomobil yolu (60 kilometr) keçir. Rayon tarixi-memarlıq və dini abidələrlə zəngindir. Cəbrayıllılar erməni təcavüzkarlarına qarşı müharibədə 350-dən çox şəhid verib, 91 nəfər əsir və itkin düşüb, 177 nəfər əlil olub.

Məlum olduğu kimi, Cəbrayıl rayonu əhalinin hər min nəfərinə düşən ziyalıların sayına görə respublikamız üzrə ilk yerlərdən birini tutur. Bu rayonla eyni gündə işğal edilmiş Füzuli rayonu isə ölkəmiz və xalqımız üçün daha böyük şöhrət, nüfuz gətirən bölgəmizdir. Belə ki, bəşər övladının ilk yaşayış məskənlərindən biri kimi ensiklopediyalara düşmüş Azıx mağarası məhz bu rayonun ərazisində və çox təəssüf ki, vəhşi xislətli qonşularımızın tapdağı altındadır. Bildirilir ki, 1993-cü il avqustun 23-də erməni hərbi birləşmələri tərəfindən işğal olunan Füzuli rayonunun ümumi sahəsi 139393 hektar olan rayonun qərb hissəsindən (50 kənd və rayon mərkəzi) 125368 hektar ərazi hələ də erməni silahlı birləşmələrinin işğalı altındadır. Füzulinin işğaldan azad olunan ərazisində 13 qəsəbə və 20 kənd var. Xalqımıza göz dağıdır ki, bu rayona məxsus qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilib. Hazırda ərazidə 51 min məcburi köçkün məskunlaşıb.

Xüsusilə vurğulanır ki, ötən əsrin 80-ci illərinin sonlarından başlayan erməni təcavüzünə qarşı mübarizədə rayonun minlərlə sakini döyüşüb, yüzlərlə insan şəhid olub, yaralanıb, girov və itkin düşüb. Ümumilikdə, Füzuli rayonu müharibədə 1100-dən artıq şəhid verib, 1450 rayon sakini əlil olub.

1994-cü ilin yanvarında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində rayonun 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad olunub. Hazırda rayonun 1382 kvadratkilometr ərazisinin 682 kvadratkilometri işğal altındadır. Rayon əhalisinin 67 min nəfəri işğaldan azad edilmiş ərazidə, 55 min nəfəri isə məcburi köçkün kimi Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Beyləqan, İmişli, Sabirabad, Saatlı və digər rayonlarda məskunlaşıb. Qeyd etdiyimiz kimi, bu rayon tarixi, mədəniyyət və memarlıq abidələri – mağara və kurqanlar, çoxlu sayda türbə, qəbirüstü abidələr, at, qoç fiqurları, qədim körpülərlə də zəngindir.

1996-cı ildən etibarən rayonun işğaldan azad olunmuş ərazilərində infrastrukturun bərpasına başlanılıb. Rayon əhalisi məmnundur ki, Prezident İlham Əliyev Füzuliyə beş dəfə səfər edib, rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair beş sərəncam imzalayıb. Bu dövrdə məcburi köçkünlər üçün rayon ərazisində 16 qəsəbə salınıb, işğalçılar tərəfindən yandırılmış və dağıdılmış evlər, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri bərpa olunub. Rayonda Müalicə-Diaqnostika Mərkəzi, su elektrik stansiyası, 24 məktəb tikilib, 2180 şagird yerlik 12 məktəb binası əsaslı təmir edilib. Əhmədbəyli–Alxanlı–Zobucuq, həmçinin Bala Bəhmənli–Araz Dilağarda–Araz Zərgər avtomobil yolları yenidən qurulub. Əhmədbəyli kəndində soyuducu anbar kompleksi, Qarabağ kəndində "Qarabağ broyler" quşçuluq müəssisəsi yaradılıb.

Bundan başqa, işğal zamanı Horadizdə yandırılmış və dağıdılmış 6 küçə yenidən qurulub, 227 ev bərpa olunaraq sahiblərinin istifadəsinə verilib. Heydər Əliyev Mərkəzi, Heydər Parkı, Muğam Mərkəzi, Gənclər Mərkəzi, Olimpiya İdman Kompleksi, rayon icra hakimiyyəti, polis və təhsil şöbələri, Milli Təhlükəsizlik Nazirliyinin rayon şöbəsi üçün inzibati binalar, Bayraq Meydanı, müasir uşaq bağçası, tarix-diyarşünaslıq muzeyi, tikiş fabriki tikilib istifadəyə verilib, mədəniyyət sarayı, şahmat məktəbi, dəmir yolunun Horadiz stansiyası yenidən qurulub. Horadiz qəsəbəsinə şəhər statusu verilib.

Həmin bölgə ilə tanışlığı olan həmkarlarımız yazırlar ki, düşmənlə təmas xəttinin bir neçə addımlığında yaşayan, işləyən və mübarizə aparan Füzuli sakinləri doğma rayonun inkişafı üçün var qüvvələrini səfərbər ediblər. Horadiz şəhərində, kənd və qəsəbələrdə həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri rayonun simasını büsbütün dəyişib. İndi bu yerlərə yolu düşən hər kəs müasirliyin, gözəlliyin, təmizliyin və səliqə-sahmanın şahidi olur.

Qalır bu rayonlarımızın düşmən tapdağından təmizlənməsi. İnanırıq və əminik ki, dövlət başçımızın qətiyyəti, xalqımızın dəstəyi və Silahlı Qüvvələrimizin qüdrəti nəticəsində o günü də tezliklə görəcəyik.

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***



